


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

5 fevral 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 5 (3768)


# Strateji tərəfdaşlıq güclənir



## Münasibətlər Əbu-Dabidə yeni mərhələyə yüksəldi

***Azərbaycanın dəyişən qlobal geosiyasi mühitdə mövqeləri möhkəmlənir.***

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 2-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gedib. Dövlətimizin başçısını BƏƏ-nin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan qarşılayıb.

Əbu-Dabidə prezidentlərin görüşü zamanı Azərbaycan–BƏƏ münasibətlərinin strateji tərəfdaşlığa əsaslandığı vurğulanıb, əməkdaşlığın siyasi, iqtisadi, enerji, o cümlədən bərpaolunan enerji, mədəni və humanitar sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub.

Danışıqlarda hərbi əməkdaşlıq məsələləri də diqqət mərkəzində olub. Əbu-Dabidə Azərbaycan və BƏƏ Silahlı qüvvələri arasında keçirilən “Sülh Qalxanı – 2026” birgə əməliyyat-taktiki təliminin əhəmiyyəti vurğulanıb, bu təlimlərin operativ hərbi uyğunluğun inkişafına töhfə verəcəyi qeyd edilib və gələcəkdə də davam etdirilməsinin önəmi bildirilib. Tərəflər əlaqələrin perspektivləri və gələcək təmaslarla bağlı fikir mübadiləsi aparıblar.

Görüşdən sonra Azərbaycan və BƏƏ prezidentlərinin iştirakı ilə “Cənub Qaz Dəhlizi” QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG şirkətinə satışı ilə bağlı alqı-satqı müqaviləsinə dair sənəd imzalanıb.

Həmçinin səfər çərçivəsində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə BƏƏ Müdafiə Nazirliyi arasında müdafiə əməkdaşlığına dair niyyət məktubu imzalanıb.

Fevralın 3-də Prezident İlham Əliyevin Əbu-Dabidə Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam ilə görüşü olub. Görüşdə Azərbaycan Prezidentinin “Zayed İnsan Qardaşlığı Mükafatı”na layiq görülməsi münasibətilə təbriklər səsləndirilib. Dövlət başçısı yüksək mükafata görə minnətdarlığını bildirərək Şeyx Zayed bin Sultan Al Nəhyanın humanitar irsinin dünyada təşviqində Zayed Fondunun rolunu yüksək qiymətləndirib. Bu mükafat Prezident İlham Əliyevin sülhün təşviqi istiqamətində fəaliyyətinə beynəlxalq dəyərin ifadəsi kimi qiymətləndirilib.

Həmin gün Prezident İlham Əliyev və Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Əbu-Dabidə keçirilən “Sülh Qalxanı – 2026” birgə əməliyyat-taktiki təlimini izləyiblər.

Politoloqların fikrincə, Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri Azərbaycan–BƏƏ münasibətlərinin ikitərəfli əməkdaşlıqdan başqa, regional və qlobal proseslər kontekstində strateji xarakter daşıdığını bir daha nümayiş etdirdi.

Siyasi dialoqun intensivliyi, iqtisadi və enerji sahəsində konkret layihələrlə möhkəmlənməsi, hərbi əməkdaşlığın praktik təlimlər səviyyəsinə yüksəlməsi göstərir ki, tərəflərin münasibətləri uzunmüddətli və institusional əsaslar üzərində qurulub.

Azərbaycan–BƏƏ münasibətləri artıq klassik diplomatik əlaqələr mərhələsini geridə qoyaraq, siyasi, iqtisadi, hərbi və humanitar sahələri əhatə edən çoxşaxəli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu tərəfdaşlıq isə Azərbaycanın dəyişən qlobal geosiyasi mühitdə mövqelərinin möhkəmlənməsinə mühüm töhfə verir.

# Gənclik gələcəyin təminatıdır

## Prezident gənclərə xüsusi diqqət və qayğı göstərir

**Əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən uzaqgörənliklə və son dərəcə uğurla qurulan dövlət gənclər siyasəti bu gün də möhtəşəm nəticələrlə öz bəhrəsini verməkdədir.**

Bu uğurlu strategiya sonrakı dövrdə Prezident İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun şəkildə yüksək səviyyədə davam etdirildi. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən gənclər siyasəti nəticəsində Azərbaycan dünyaya nümunə ola biləcək vətənpərvər, savadlı, innovativ düşüncəyə malik bir gənclik təqdim edir. Bu siyasət gənc nəslin hərtərəfli inkişafına, onların cəmiyyətin bütün sahələrində fəal iştirakına geniş imkanlar açıb.

Azərbaycanda milli ruhda və vətənpərvərlik ideyaları əsasında yetişdirilən gənc nəsil 2020-ci il sentyabrın 27-də başlayan və noyabrın 10-dək davam edən Vətən müharibəsində öz gücünü və qətiyyətini bir daha nümayiş etdirdi. Məhz onların rəşadəti və fədakarlığı sayəsində Azərbaycan şanlı Zəfərə imza atdı, ərazi bütövlüyü və antiterror tədbirləri nəticəsində dövlət suverenliyi tam təmin olundu.

Prezident İlham Əliyevin gənclərlə mütəmadi görüşləri, onlara verdiyi tövsiyələr, gəncliyə göstərilən hərtərəfli dövlət dəstəyi bu sahənin davamlı inkişafına güclü təkan verir. Azərbaycan gəncliyi ilə bağlı dövlət proqramlarının qəbul olunması, ölkənin müxtəlif bölgələrində “Gənclər evi”nin yaradılması, perspektivli gənclərin üzə çıxarılması və onların inkişafına yönəlmiş “Yüksəliş” müsabiqəsinin təşkili, eyni zamanda Gənclər Fondunun səmərəli fəaliyyəti gənclərin sosial həyatın bütün sahələrində daha fəal iştirakını təmin edib. Hər il “Gənclər üçün Prezident Mükafatı”nın verilməsi də dövlət başçısının gənclərə göstərdiyi xüsusi diqqətin bariz nümunəsidir. Bu il yanvarın 30-da Prezident İlham Əliyevin təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində fərqlənən gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında imzaladığı Sərəncam gənclərin əməyinə verilən yüksək dəyərin göstəricisidir.

Bu gün gənclərin fəal şəkildə təmsil olunduğu sahələrdən biri də daxili işlər orqanlarıdır. Azərbaycan daxili işlər sistemində gənc kadrların xüsusi çəkisi daxili işlər nazirinin mütəmadi keçirdiyi sıra baxışları zamanı yüzlərlə gəncin xidmətə qəbul edilməsi ilə daha da artır. Üstəlik, hər il Polis Akademiyasını bitirən gənc zabitlər daxili işlər orqanlarında xidmətə başlayaraq cinayətkarlığa qarşı mübarizəyə qoşulurlar. Bu gənc kadrlar yalnız peşəkar bilikləri ilə deyil, eyni zamanda yüksək mənəvi keyfiyyətləri, dövlətə və xalqa sədaqətləri ilə seçilirlər. Onların dövlət quruculuğunda, təhlükəsizlik və sabitliyin qorunmasında fəal iştirakı bir daha sübut edir ki, Azərbaycan gəncliyi həm bu günün, həm də gələcəyin əsas dayağıdır.

# Sülh prosesi davam edəcək

## Prezident ilə Baş nazir görüşüb

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşüb.

Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri iki ölkə arasında sülhün və sabitliyin daha da möhkəmləndirilməsi istiqamətində səyləri davam etdirməyə hazır olduqlarını bir daha təsdiqləyib, ikitərəfli normallaşma prosesinə dəstək məqsədilə təmasları davam etdirmək barədə razılığa gəliblər.

# Prezidentlərin telefon danışığı

## Birgə atılacaq addımlar müzakirə edilib

Prezident İlham Əliyev yanvarın 31-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edib.

Telefon danışığı əsnasında dövlətimizin başçısı bölgədə yaranmış vəziyyətin narahatlıq doğurduğunu ifadə edərək, Azərbaycanın gərginliyin aradan qaldırılmasına töhfə verməyə hazır olduğunu bildirib və ölkəmizin bu kimi məsələlərin danışıqlar və qarşılıqlı anlaşma yolu ilə həllinin tərəfdarı olduğunu vurğulayıb.

Söhbəti zamanı ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin müxtəlif aspektləri və gələcək birgə addımlar barəsində fikir mübadiləsi aparılıb.

# Saziş təsdiqləndi

## Prezident bununla bağlı Fərman imzalayıb

Prezident İlham Əliyev yanvarın 27-də “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Gürcüstanın Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə Fərman imzalayıb.

Fərmana əsasən, 2025-ci il noyabrın 21-də Tbilisi şəhərində imzalanmış sözügedən Saziş təsdiq edilib. Saziş qüvvəyə mindikdən sonra onun müddəalarının icrasını Daxili İşlər Nazirliyi təmin edəcək.

Xarici İşlər Nazirliyinə isə Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan hökumətinə rəsmi bildiriş göndərilməsi tapşırılıb.

# Gənclər Günü

## Prezident və Birinci vitse-prezident paylaşım edib

Prezident İlham Əliyev sosial media hesablarında Gənclər Günü münasibətilə paylaşım edib. Paylaşımda Prezident qeyd edib ki: “Biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik!”.

Birinci vitse-prezident Mehriban Əliyeva da Gənclər Günü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib: "Əminəm ki, Azərbaycan gəncləri öz uğurları, qələbə və nailiyyətləri ilə xalqımızı daim sevindirəcək və ölkəmizin inkişafına layiqli töhfələr verəcəklər".


Qəbələdə vətəndaş qəbulu keçirilib..2

Müasir dövrün polisi..........................2

Sözün məsuliyyəti..............................3

Bir forma, fərqli missiya....................4

# Respublika Xəbərləri

### Naxçıvanın konstitusiyasında dəyişiklik edilir

Milli Məclis Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu II səsvermədə təsdiqləyib. Muxtar Respublikasının Konstitusiyasına 2 yeni maddənin əlavə edilməsi, 1 maddənin çıxarılması, bir sıra maddələrdə və Preambula hissədə isə dəyişikliklər edilməsi nəzərdə tutulur.

### Minimum əməkhaqqına yenidən baxılacaq

Minimum əməkhaqqının məbləği ilə bağlı yenilik olacaq. Milli Məclisin plenar iclasında müzakirə olunan layihəyə əsasən minimum əməkhaqqının məbləğinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun təklifləri əsasında ildə bir dəfədən az olmayaraq yenidən baxılacaq. Layihə səsə qoyularaq birinci oxunuşda təsdiqlənib.

### “Rəqəmsal sübutlar” hüquqi status alır

Azərbaycanda “rəqəmsal sübutlar”ın hüquqi statusu yaxın vaxtlarda tam formalaşacaq. Bununla bağlı təkliflər Milli Məclisə təqdim olunub. Bu yanaşma cinayətlərin texniki izlərinin proqram təminatlarında, aparat qurğularında, informasiya sistemlərində və şəbəkə mühitində aşkar olunması, toplanması və hüquqi baxımdan etibarlı sübut kimi tanınması üçün vahid hüquqi əsas yaradacaq.

### Elektrik şəbəkəsi yenilənir

İşğaldan azad olunan ərazilərdə elektrik təsərrüfatı yenilənir. Yenidənqurma işləri Cəbrayılı da əhatə edib. Rayonun Horovlu, Şükürbəyli, Xudafərin, Soltanlı, Sarıcallı, Maşanlı, Böyük Mərcanlı və Karxulu yaşayış məntəqələri dayanıqlı elektrik enerjisi ilə təmin edilib. Xankəndinin də elektrik təsərrüfatı yenidən qurulur.

### Mina təmizliyi

Ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 337, tankəleyhinə 37 mina və 1364 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Həmçinin 1 738,3 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

### Gənclər işlə təmin edilir

Gənclərin məşğulluğu üçün ötən il daha 72 min 600 gənc münasib işlərlə təmin edilib. Özünüməşğulluq proqramı çərçivəsində isə daha 2500 gəncə aktivlər verilməklə kiçik bizneslər qurulub. 9500-dək gənc isə peşə hazırlığı kurslarına cəlb edilərək müasir əmək bazarının tələblərinə uyğun peşələrə yiyələnib.

### Növbəti qayıdış gerçəkləşib

Yanvarın 30-da Xankəndi, Xocalı və Ağdərəyə növbəti qayıdış gerçəkləşib. Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinə 25, Ağdərə rayonunun Həsənriz kəndinə 52, Xocalı rayonunun Xanyurdu kəndinə 24, Təzəbinə kəndinə isə 41 nəfər köçürülüb.

### Zəngəzurun elektrik xətti çəkilir

“Zəngəzur" elektrikötürmə xəttinin tikintisinə başlanılıb. Cəbrayıl rayonundan Ağbənd istiqamətində 74 kilometr, paralel olaraq Naxçıvan Muxtar Respublikasından Ordubad sərhədinədək 105 kilometr məsafəni əhatə edən bu xətt sonrakı mərhələdə Zəngəzur dəhlizi boyunca əlavə 44 kilometrlik bağlantı ilə vahid sistemə inteqrasiya olunacaq.

### Tələbələrə təhsil krediti verilir

Təhsil Tələbə Krediti Fondu fəaliyyətə başladığı gündən etibarən Fondun “e-ttkf.edu.az” elektron portalına 87 min 588 müraciət daxil olub. Müraciətlərdən 71 min 695 təhsil tələbə krediti müqaviləsi rəsmiləşdirilib. Rəsmiləşdirilən müqavilələrin 46 min 858-i standart növ, 24 min 837-si isə sosial növ təhsil tələbə kreditidir.

### Tramvay Bakıya qayıdır...

Abşeron rayonunun Mehdiabad qəsəbəsindən metronun “28 May” stansiyasına qədər tramvay xətti çəkiləcək. İlkin sxemə əsasən tramvayların paytaxtın Azadlıq prospektilə hərəkət edərək “28 Mall” ticarət mərkəzinin qarşısından geriyə dönüş etməsi planlaşdırılır.

### Yeni nəqliyyat marşrutu

Araz çayı üzərində Ağbənd və Kələlə məntəqələrini birləşdirən avtomobil körpüsünün tikintisi üzrə işlər qrafikə uyğun aparılır. Layihənin bu il tamamlanması nəzərdə tutulur. Körpü Azərbaycanın əsas hissəsini İran vasitəsilə Naxçıvana birləşdirəcək.

# Qəbələdə vətəndaş qəbulu keçirilib

## Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələr üzrə vətəndaş qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov fevralın 1-2-də Qəbələ rayonunda növbəti vətəndaş qəbulu keçirib.**









Nazir əvvəlcə Qəbələ rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra Polis Şöbəsinin inzibati binasında Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 314 nəfər vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 206 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 17 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

# Müasir dövrün polisi

## Xidmətin mərkəzində vətəndaş maraqları dayanır

Zaman ötdükcə cəmiyyət də dəyişir, onu qoruyan institutlar da. Bu dəyişimin mərkəzində isə polis dayanır. Artıq polisin vəzifələri daha mürəkkəb və çoxşaxəli olub.

Ənənəvi baxışda polisin əsas vəzifəsi ictimai asayişin qorunması, cinayətlərin qarşısının alınması və hüquq pozuntularına dərhal müdaxilə idi. Təbii ki, bu vəzifə bu gün də öz aktuallığını qoruyur. Lakin hazırda qloballaşma, rəqəmsallaşma, sosial şəbəkələrin təsiri və yeni cinayət növlərinin yaranması kimi çağırışlar polisin fəaliyyət çərçivəsini xeyli genişləndirib.

### Risklər, təhdidlər...

İndi rəqəmsal təhlükəsizliklə bağlı təhdidlər küçədə baş verən quldurluq, soyğunçuluq kimi ağır cinayətlərdən heç də az təhlükəli deyil. Virtual məkanda kibercinayətlər, onlayn dələduzluqlar, şəxsi məlumatların oğurlanması baş verir. Bu isə polisin bilik və bacarıqlarının daim yenilənməsini, texnologiya ilə ayaqlaşmasını zəruri edib. Polis artıq profilaktik düşünür və xidmətini buna uyğun təşkil edir. Yəni bu gün polis hadisədən sonra deyil, hadisədən əvvəl hərəkət etməyə çalışır. Dünən məqsəd cinayət törədildikdən sonra onun üstünü açmaq idisə, bu gün əsas qayə ümumiyyətlə həmin cinayətin baş verməsinin qarşısını almaqdır.

Azərbaycan Polisinin genişmiqyaslı maarifləndirmə tədbirləri, gənclərlə iş, münaqişəli ailələrin erkən mərhələdə aşkarlanması və adekvat tədbirlərin görülməsi bunun bariz nümunəsidir. Xidmətin təşkilində “vətəndaş məm-



nunluğunun təmini”ni əsas götürən polis vətəndaşla münasibətlərini qarşılıqlı güvən və etimad üzərində qurmağa kökləyib. Bu, dövlət başçısı İlham Əliyevin “bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır” şüarının, bir növ, Daxili İşlər Nazirliyində xidmətin təşkilinə transformasiyasıdır. Əsas meyar vətəndaşın təhlükəsizliyi və rifahının təmin olunmasıdır. Bununla tətbiq olunan yeniliklər dövlət-vətəndaş münasibətlərində etimadın möhkəmləndirilməsi, məmnuniyyətin artırılmasıdır. Bəs müasir dövrün polis əməkdaşı necə olmalıdır, fərd olaraq nələri nəzərə almalıdır? Bu sual sadə görünsə də, cavabı çox dərindir. Əvvəla bir polis əməkdaşı necədirsə, bütöv bir struktura da cəmiyyət eyni təssüratla yaranaşacaq. Buna güzgü effekti də deyə bilərik. Hələ onu da nəzərə almaq lazımdır ki, bu gün cəmiyyət daha tələbkardır və daha fərqli münasibət axtarışındadır. Qanunun hamı üçün bərabər tətbiqi keşiyini çəkdiyimiz hüquqi dövlətin əsas prinsiplərindən biridir. Polis əməkdaşının fəaliyyəti şəxsi münasibətlərdən, sosial statusdan və ya digər subyektiv amillərdən asılı deyil, ola da bilməz. Cəmiyyətin polisə olan inamının formalaşmasında ədalətli və prinsipial yanaşma həlledicidir. Uniforma polis əməkdaşına üstünlük qazandırmır, üzərinə məsuliyyət qoyur. Küçədə, sosial şəbəkədə, gündəlik həyatda - polis hər yerdə polisdir. Bir kobud söz, bir hörmətsiz davranış illərlə qurulan etimadı saniyələr içində dağıda bilər. Polis vətəndaşla qarşı-qarşıya yox, yan-yana dayanır. Tələb budur.

### Polis dövrün çağırışlarına cavab verir

Bütün bunlar müasir dövrdə polisin təkcə asayişi qorumaqla məhdudlaşmayan fəaliyyətinə geniş və çoxşaxəli missiya əlavə olunduğunu aydın şəkildə göstərir. Azərbaycan Polisi artıq dövrün çağırışlarına uyğun olaraq fəaliyyətini daim yeniləyən, cəmiyyətə daha yaxın olmağı hədəfləyən bir qurum kimi formalaşıb. Polis–vətəndaş münasibətlərinin möhkəmləndirilməsi, profilaktik tədbirlərin gücləndirilməsi, rəqəmsal təhlükəsizliyin təmin edilməsi, insanların can və əmlak toxunulmazlığının, hüquqlarının qorunması Azərbaycan Polisinin müasir fəaliyyət fəlsəfəsinin əsas istiqamətlərindən olub. Şübhəsiz ki, polis üçün güc amili zərurət yarandıqda fiziki müdaxilə imkanını da ehtiva edir. Ancaq Azərbaycan Polisi üçün güc anlayışı həm də peşəkarlıq, məsuliyyət və xalqa xidmət prinsipi ilə ölçülür.

# Cəmiyyət polisə niyə inanır?

## DİN-ə daxil olan 3 milyona yaxın müraciət ictimai etimadı təsdiqləyir

Təhlükəsizlik, qayda-qanun və ədalət deyəndə dərhal polis yada düşür. Bu illər ərzində formalaşmış etimad deməkdir. Uzunmüddətli davranışın, peşəkarlığın və qarşılıqlı münasibətlərin nəticəsində yaranan ictimai inam. Vətəndaş polisə inananda, əslində, dövlətinin onu qoruyacağına, haqsızlıq qarşısında tək qalmayacağına inanır. Əgər 2025-ci ildə DİN-ə 3 milyona yaxın müraciət daxil olubsa, bu, görülən işlərin miqyasını aydın şəkildə göstərir.

Küçədə patrul avtomobilini görmək, xidmət başında olan polis əməkdaşı ilə qarşılaşmaq insanlarda "nəzarət var" hissini yaradır. Bu, sadə, lakin güclü psixoloji amildir. İnsan bilir ki, təhlükə anında müraciət edəcəyi bir struktur mövcuddur. Polisin daim göz önündə olması onu cəmiyyətin ayrılmaz hissəsinə çevirir və ilkin etimad məhz bu nöqtədə formalaşır. Əsl etimad isə təcrübə ilə yaranır. Vətəndaş polisə müraciət etdikdə dinlənildiyini, hörmət gördüyünü və obyektiv yanaşma ilə qarşılaşdığını hiss edirsə, bu yalnız onun yox, ətrafındakı insanların da düşüncəsini formalaşdırır. Müsbət təcrübə zəncirvari şəkildə yayılaraq cəmiyyətdə polisə inamı möhkəmləndirir. Bu mərhələdə polisin peşəkarlığı əsas amilə çevrilir. Çünki vətəndaşla təmasda olan hər bir davranış, verilən hər bir qərar birbaşa bilik, hazırlıq və məsuliyyət səviyyəsindən qaynaqlanır. Polis orqanlarında peşəkarlığın artırılması cəmiyyətə göstərilən xidmətin keyfiyyəti deməkdir.

Buna görə polis və Daxili Qoşunların şəxsi heyətinin nəzəri-praktiki hazırlığının təkmilləşdirilməsinə xüsusi önəm verilir. Ötən kollegiya iclasında bəlli oldu ki, təkcə keçən il ölkə daxilində və xarici dövlətlərdə keçirilən təlimlər, seminar və treninqlər, ixtisasartırma kursları, eləcə də onlayn proqramlarda iştirak edən polis əməkdaşı və Daxili Qoşun hərbi qulluqçularının sayı 63 min nəfərdən artıq olub. Müasir iş metodlarına yiyələnən, bilik və bacarıqlarını daim yeniləyən daxili işlər orqanlarının əməkdaşlarının cəmiyyət qarşısında daha inamlı və daha ədalətli mövqe nümayiş etdirməsinin metodiki əsası da var. Vətəndaş peşəkarlıq səviyyəsi yüksəlmiş daxili işlər orqanlarının əməkdaşlarını hər zaman ən təhlükəli situasiyalarda ön cəbhədə görür. Cinayət hadisələri, fövqəladə hallar zamanı ilk reaksiya verənlərdən biri məhz polis olur. İnsanlar anlayırlar ki, kimsə onların təhlükəsizliyi üçün öz rahatlığını, bəzən isə həyatını riskə atır. Bu fədakarlıq cəmiyyətdə hörmət yaradır. Polis güclü olduğu üçün yox, məhz peşəkar və ədalətli olduğu üçün cəmiyyətin etimadını qazanır. Təbii ki, ictimai etimad olduqca həssas anlayışdır və daim qorunmalı olan bir dəyərdir. Polisin fədakar xidməti də bu dəyəri qoruyub saxlayır.

# Hərbi İnstitutda yeniliklər tətbiq olunur

## Atəş hazırlığı üzrə simulyasiya təlimlərin effektivliyini artırır

DİN-in Daxili Qoşunlarının Hərbi İnstitutunda təlim-tədris prosesində innovativ həllərə və müasir texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilir. Bu məqsədlə institutda fərdi atıcılıq üzrə simulyasiya sistemi ilə təchiz edilən, praktik məşqlərin elektron nəzarət və təhlil imkanları əsasında aparılmasına şərait yaradan atəş hazırlığı üzrə simulyasiya sinfi yaradılıb. Məqsəd atəş hazırlığının keyfiyyətini daha da yüksəltmək, təlimlərin effektivliyini artırmaq və texnoloji yeniliklərlə ayaqlaşan peşəkar zabit potensialının formalaşdırılmasını davamlı şəkildə gücləndirməkdir.

Yenilik şəxsi heyətin hazırlıq səviyyəsinin yüksəldilməsi, təlim prosesinin daha sistemli qurulması, təhlükəsizlik tələblərinin gücləndirilməsi, nəticələrin obyektiv qiymətləndirilməsi baxımından əhəmiyyətlidir.

Simulyasiya sinfi atəş hazırlığını klassik yanaşmadan çıxararaq müasir texnoloji platformaya daşıyır. Burada məşqlər planlı ssenarilər əsasında təşkil olunur, təkrarlanan çalışmalar daha yüksək keyfiyyətlə həyata keçirilir və hər bir iştirakçının nəticələri izlənilərək təhlil edilir.

Daxili İşlər Nazirliyində tələb olunan bu yanaşma təlimdə dəqiqlik, intizam, məsuliyyət prinsiplərini daha da möhkəmləndirməklə yanaşı, kursantların qərarvermə, operativ reaksiya və diqqət konsentrasiyası kimi vacib bacarıqların inkişafına da real töhfə verir.



# Sərnişinlərin təhlükəsizliyi prioritetdir

## Metroda xidmət yüksək səviyyədə təşkil olunub






Bakının təhlükəsizliyi təkcə yer üstündə qurulan sistemlərlə məhdudlaşmır. Bu təhlükəsizlik gündəlik həyatın ən intensiv məkanlarından olan metroda da yüksək səviyyədə təşkil olunub.

Bakı Metropoliteninin açıqlamasına görə, ötən il 227 milyona yaxın sərnişin metrodan istifadə edib. Bu fakt həm də hər gün yüz minlərlə sərnişinin yer altında təhlükəsizliyini qoruyan polis əməkdaşlarının xidmətinin rəqəmlə ifadəsidir. Belə sıxlıq şəraitində asayişin qorunmasının gərgin əməyin və yüksək peşəkarlığın sayəsində ərsəyə gəldiyini qeyd etməmək doğru olmaz. Bakı metrosunda təhlükəsizliyin yüksək səviyyədə təmin olunması paytaxtdakı əmin-amanlığın əsas göstəricilərindən biri sayılır. Belə geniş və mürəkkəb nəqliyyat sistemində asayişin keşiyində dayanan Bakı Metropolitenində Polis İdarəsinin fəaliyyəti bu mənada xüsusi əhəmiyyət daşıyır.

Məlumat üçün əlavə edək ki, 2025-ci il ərzində Bakı Metropoliteni ərazisində ümumilikdə 20 cinayət hadisəsi qeydə alınıb və onların hamısının açılması təmin edilib. Cinayətlərin 17-si mülkiyyət əleyhinə, 2-si narkotik vasitələrlə əlaqəli, 1-i isə şəxsiyyət əleyhinə olub. Bütün bu hallarla bağlı metro polisi tərəfindən operativ tədbirlər görülüb və qanunu pozan şəxslər məsuliyyətə cəlb olunub.

Bundan başqa, polis əməkdaşları tərəfindən hər gün təhlükəsizlik baryerlərinin pozulması, xırda xuliqanlıq halları, dilənçilik, qadağan olunmuş yerlərdə siqaretdən istifadə kimi qayda pozuntuları aşkar edilir. Müxtəlif səbəblərlə axtarışda olan şəxslər müəyyən edilərək barələrində qanunvericiliyə uyğun tədbirlər görülür.

Sərnişinlərin davranışlarını diqqətlə izləməkdən tutmuş müşahidə kameralarından gələn görüntüləri operativ təhlil etməyə, izdihamlı anlarda idarəetmənin təmini və riskləri vaxtında sezməyə qədər hər bir əməkdaş sərnişinlərin təhlükəsizliyi üçün gərgin əmək sərf edir. Böyük insan axınının olduğu bu qapalı məkanda baş verə biləcək ən kiçik insidentin belə ciddi risk yarada biləcəyini nəzərə alanda metro polisinin üzərinə düşən yükün nə qədər ağır olduğu aydın görünür.

Doğrudur, ola bilsin, sərnişinlərin əksəriyyəti metroya daxil olub çıxarkən heç bunun fərqində olmur. Ancaq sərnişinin təhlükəsizlik qayğısının olmamasının özü elə nəticədir. Demək ki, polis əməkdaşları təhlükəsizlik hissini gündəlik həyatın ayrılmaz parçasına çevirə biliblər.

# Sözün məsuliyyəti

## Etik Kodeks media ilə münasibətlərdə həssaslıq tələb edir

**Media ilə münasibətlər polis fəaliyyətinin ən həssas sahələrindən biridir. "Daxili işlər orqanlarının Etik Davranış Kodeksi"ndə buna ayrıca maddənin ayrılması bu mənada bizə, əslində, sözün məsuliyyətini xatırladır.**

Məsələ ondadır ki, cəmiyyətin informasiya alma ehtiyacı artdıqca daxili işlər orqanlarının fəaliyyəti də daha çox ictimai diqqət mərkəzinə düşür. Hazırda Daxili İşlər Nazirliyi mediaya ən açıq və rəğbətlə yanaşılan dövlət qurumlarından biri, hətta birincisidir. Bu da təsadüfi deyil. Media subyektlərinin dürüst və obyektiv məlumat almaq hüququna hörmət edilməsi, hüquqi çərçivə daxilində bu hüququn reallaşması üçün bütün zəruri imkanların yaradılması dövlət-vətəndaş münasibətlərində sağlam dialoqu da göstərir. Azərbaycan Polisi cəmiyyət üçün qapalı bir struktur deyil, əksinə, ictimai təhlükəsizliyin təminində açıq və hesabatlı bir qurum kimi çıxış edir. Media ilə düzgün qurulan münasibətlər bu açıq modelin praktik təzahürüdür.

Nəzərə alınmalıdır ki, polis əməkdaşının mediada səsləndirdiyi hər bir fikir daxili işlər orqanlarının rəsmi mövqeyi kimi qəbul olunur. Bu isə böyük məsuliyyət deməkdir. Verilən məlumatların etibarlı, balanslı və hüquq normalarına uyğun olması həm peşə etikası, həm də hüquqi öhdəlik baxımından vacibdir. Tələsik, emosional və ya qeyri-dəqiq açıqlamalar cəmiyyətdə yanlış təsəvvür yarada, istintaq proseslərinə və ya insan talelərinə ciddi təsir göstərə bilər.

Deməli, mediada çıxışların institusional nəzarət mexanizmi çərçivəsində, peşəkar şəkildə həyata keçirilməsi zəruridir. Yəni mediada çıxışlar yalnız Nazirliyin Mətbuat Xidməti ilə razılaşdırılmaqla həyata keçirilməlidir.

Buna görə Etik Davranış Kodeksi media ilə münasibətlərdə ən mühüm prinsiplərdən biri kimi səlahiyyət həddinin qorunmasını tələb kimi müəyyən edir. Polis əməkdaşı yalnız öz səlahiyyətinə aid olan məsələlər barədə danışmalı, məxfi və konfidensial məlumatların açıqlanmasına səbəb ola biləcək hallardan qəti şəkildə çəkinməlidir. Bu, həm hüquq təhlükəsizliyi, həm də vətəndaşların maraqlarının qorunması baxımından vacibdir. Xüsusilə istintaq gedən işlərlə bağlı açıqlamalar hüquqi proseslərə zərər vura bilər.

Digər mühüm məqam polis əməkdaşının neytrallığıdır. Mediada səsləndirilən fikirlər siyasi, dini, irqi və ya digər ayrı-seçkilik yaradan çalarlar daşımamalı, nifrət və düşmənçilik təəssüratı formalaşdırmamalıdır. Polis cəmiyyətin bütün təbəqələrinə eyni məsafədə dayanan, qərəzsiz və obyektiv bir institutdur. Bu qərəzsizlik mediada da açıq şəkildə hiss olunmalıdır.

Söz mövqe formalaşdırır, ictimai rəyə təsir edir, davranış yaradır və bəzən real nəticələrə səbəb olur. Məhz buna görə hüquq sistemləri sözü yalnız azadlıq kontekstində deyil, eyni zamanda məsuliyyət prizmasından da dəyərləndirir.

Konstitusiyaya əsasən ifadə azadlığı hər kəsin fundamental hüququdur. Lakin bu azadlıq mütləq xarakter daşımır. Hüquqda əsas prinsip ondan ibarətdir ki, bir şəxsin azadlığı digər şəxsin hüquqlarının başladığı nöqtədə məhdudlaşır. Bu baxımdan deyilən hər söz hüquqi nəticə doğura bilər. Xüsusilə informasiya texnologiyalarının inkişaf etdiyi, sosial şəbəkələrin ictimai rəyə sürətlə təsir göstərdiyi dövrdə sözün məsuliyyəti daha da aktuallaşıb.

*R.Mehtiyev*

# İstixanadan həbsxanaya

## Keçmiş məhkumlar yenə cinayət törətdilər



Paytaxtın Sabunçu rayonunda talama cinayəti qeydə alınıb. Zərərçəkən polisə müraciət edərək Maştağa qəsəbəsində yerləşən ona məxsus istixanadan 50 min manat dəyərində qazanxana avadanlıqlarının naməlum şəraitdə oğurlandığını bildirib.

Sabunçu Rayon Polis İdarəsi 14-cü Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlə əməli törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş, 55 yaşlı Mahir Həsənov və 36 yaşlı Tural Hacıyev saxlanılıblar. Həmin şəxslərin bir müddət əvvəl fəaliyyətini dayandıran istixananı kənardan müşahidə etdikləri və gediş-gəliş olmadığını görüb talama cinayətini törətdikləri müəyyən edilib. Onlar hadisədən sonra əraziyə evakuator çağıraraq oğurladıqları avadanlıqların onlara məxsus olduğunu bildirib satmaq məqsədilə daşınmasını təşkil ediblər. T.Hacıyevin bir müddət əvvəl qohumunun evindən 4500 manat nağd pul oğurladığı da məlum olub.

Bundan əlavə, Sabunçu rayonu ərazisində obyektlərdən naqil və əlvan metalların oğurlanması barədə də polisə məlumat daxil olub. Sabunçu RPİ 14-cü PŞ əməkdaşlarının keçirdikləri tədbirlərlə əməlləri törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş, 35 yaşlı Hüseyn Quliyev də saxlanılıb.

Araşdırma zamanı onun daha iki evdən məişət əşyaları və inşaat materialları oğurladığı müəyyən edilib.

Faktlarla bağlı araşdırmalar davam etdirilir.

# Açıq qapı oğruya dəvətdir

## Qapıları yoxlayıb oğurluq edirmiş

Yasamal rayonunda mənzillərin giriş qapılarını yoxlayaraq açıq olan evlərdən birinə daxil olmaqla oğurluq törədilməsi barədə polisə məlumat daxil olub.

Diqqət çəkməmək üçün müxtəlif geyimlərdən istifadə edən naməlum şəxs bu üsulla bir mənzildən 900 manat nağd pul, həmçinin 38800 manat dəyərində qızıl-zinət əşyalarını talayıb.

Yasamal Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə əməli törətməkdə şübhəli bilinən M.Hüseynova saxlanılıb. Onun üzərindən oğurlanan qızıl-zinət əşyalarının bir qismi aşkarlanaraq maddi sübut kimi götürülüb.

Faktla bağlı Cinayət Məcəlləsinin oğurluq maddəsi ilə cinayət işi başlanılıb. Hazırda talanmış əmlakın qalan hissəsinin aşkar edilməsi və iş üzrə digər halların müəyyənləşdirilməsi istiqamətində istintaq tədbirləri davam etdirilir.

Vətəndaşlara tövsiyə edilir ki, mənzillərin giriş qapılarını açıq saxlamasınlar, şəxsi əmlaklarının təhlükəsizliyinə diqqətlə yanaşsınlar və şübhəli hallarla qarşılaşdıqda dərhal polisə məlumat versinlər.

# Bir forma, fərqli missiya

## Dünyada və Azərbaycanda qadın polislər

**Uzun illər polis xidməti fiziki güc, sərtlik və risk anlayışları ilə əlaqələndirilib. Bu yanaşma qadınların hüquq-mühafizə orqanlarında iştirakını uzun müddət məhdudlaşdırıb. Lakin zaman dəyişdikcə polis xidmətinin mahiyyəti də dəyişib. Müasir dünyada polis yalnız güc tətbiq edən struktur deyil, eyni zamanda cəmiyyətlə işləyən, ünsiyyət quran və etimad yaradan bir institutdur. Bu dəyişiklik qadın polislərin rolunu daha aydın və daha vacib edib.**

Bu gün dünyanın müxtəlif ölkələrində qadınlar eyni formanı geyinsələr də, onların missiyaları, fəaliyyət sahələri və cəmiyyət içində mövqeləri fərqli modellər üzrə formalaşır.

**Qadın əməkdaşlar sərt polis xidmətinə həm də zəriflik qatırlar**

Amerika Birləşmiş Ştatlarında qadın polislər polis sisteminin bütün əsas istiqamətlərində fəaliyyət göstərirlər. Onlar patrul xidmətində, istintaq, əməliyyat, narkotiklərlə mübarizə və ailədaxili zorakılıq üzrə ixtisaslaşmış strukturlarda çalışırlar. Son illərdə qadınların xüsusi təyinatlı qüvvələrdə də təmsil olunması artıq istisna hal sayılmır. ABŞ təcrübəsində qadın polislərin böhran vəziyyətlərində, münaqişələrin həllində və vətəndaşla ünsiyyətdə daha təmkinli yanaşma nümayiş etdirdiyi vurğulanır. Bu isə bir çox hallarda güc tətbiqinə ehtiyacı azaldır.

**Gündoğandan Günbatana qədər qadınlar kişi həmkarları ilə çiyin-çiyinə xidmət edirlər**

Yaponiyada polis sistemi yüksək intizam və ictimai etimad üzərində qurulub. “Koban” adlanan kiçik polis məntəqələri vasitəsilə polis gündəlik həyatın içində fəaliyyət göstərir. Qadın polislər bu məntəqələrdə vətəndaş müraciətlərinin qəbulu, itkin düşmüş şəxslərlə bağlı ilkin tədbirlər, uşaqlar və yaşlılarla ünsiyyət kimi sahələrdə aktivdirlər. Cəmiyyətdə qadın polis daha çox istiqamət verən və sakitləşdirici obrazda qəbul olunur. Böyük Britaniyada qadın polislər “icma polisi” modelinin əsas aparıcı qüvvələrindən biri hesab olunur. Bu modeldə polis cəmiyyətə kənardan nəzarət edən deyil, onun bir hissəsi kimi fəaliyyət göstərir. Qadın əməkdaşlar məktəblərlə, gənclərlə, ailələrlə işləyir, məhəllə səviyyəsində profilaktik tədbirlər həyata keçirirlər. Bu yanaşma polisə inamın artmasına və vətəndaşların problemlərini açıq şəkildə bölüşməsinə şərait yaradır. Norveç, İsveç və Finlandiya kimi ölkələrdə polis fəaliyyəti sosial məsuliyyət anlayışı üzərində qurulub. Burada qadın polislər xüsusilə ailədaxili zorakılıq, uşaq və qadın qurbanlarla iş, sosial risk qrupları ilə əlaqə sahələrində mühüm rol oynayırlar.







Fransa və Almaniya kimi ölkələrdə qadın polislər yol polisi, istintaq, sərhəd və miqrasiya nəzarəti, ictimai asayişin qorunması sahələrində kişi həmkarları ilə bərabər şəkildə fəaliyyət göstərirlər.

Yaxın Şərq ölkələrində də qadın polislərin iştirakı son illərdə nəzərəçarpacaq dərəcədə artıb və bu, təhlükəsizlik sahəsində mühüm dəyişikliklərin göstəricisidir. Əvvəllər daha çox məhdud və simvolik xarakter daşıyan bu iştirak indi bir çox ölkədə real və funksional rola çevrilib. Qadın polislər cəmiyyətin ehtiyaclarına daha həssas yanaşma tələb edən sahələrdə, xüsusilə qadınlar və uşaqlarla bağlı məsələlərdə vacib boşluğu doldururlar.

Birləşmiş Ərəb Əmirlikləri bu sahədə ən qabaqcıl nümunələrdən biri hesab olunur. Burada qadın polislər təkcə inzibati işlərlə kifayətlənməyib patrul xidmətində, istintaqda, hava limanlarında və hətta rəhbər vəzifələrdə fəaliyyət göstərirlər. Səudiyyə Ərəbistanında isə son illərdə aparılan islahatlar nəticəsində qadınların polis və təhlükəsizlik strukturlarına cəlb olunması mümkün olub. Onlar, əsasən, ictimai asayişin qorunması, hava limanı nəzarəti və ailə zorakılığı ilə bağlı bölmələrdə çalışırlar.

Misirdə qadın polislər daha çox ictimai tədbirlərdə, turizm bölgələrində və qadınların təhlükəsizliyinin təmin olunmasında rol alırlar. Mərakeşdə isə qadınların polis strukturlarında iştirakı artıq adi haldır; onlar yol polisi, cinayət istintaqı və müxtəlif inzibati sahələrdə aktiv şəkildə xidmət edirlər. İordaniyada qadın polislər “icma polisi” modelində, sosial yönümlü təhlükəsizlik işlərində və həbsxana sistemində mühüm vəzifələr yerinə yetirirlər.

**Azərbaycanda qadın polislər son illərdə bayır xidmətində ictimai asayişin qorunmasına da cəlb edilirlər**

Azərbaycanda qadın polislərin sayı, əsasən, müəyyən sahələr üzrə cəmləşib. Qadın əməkdaşlar daha çox istintaq və təhqiqat qurumlarında, pasport-qeydiyyat xidmətlərində, yetkinlik yaşına çatmayanlarla iş üzrə strukturlarda, inzibati və kadr sahələrində fəaliyyət göstərirlər. Son illərdə qadın polislərin ictimai asayişin qorunması sahəsində də iştirakı da aktivləşib.

Xüsusilə qadın və uşaq qurbanlarla bağlı işlərdə qadın əməkdaşların rolu daha effektiv hesab olunur. Bu, həm psixoloji yanaşma, həm də etimad baxımından mühüm üstünlük yaradır.

**Müasir polis sistemində fərqli bacarıqları kişi və qadın polislər birlikdə tamamlayır**

Dünya təcrübəsi göstərir ki, qadın polislərin fəaliyyəti yalnız gender balansı məsələsi deyil.

Onlar polis xidmətinə daha çox ünsiyyət, empatiya və sosial məsuliyyət elementi gətirirlər. Bu yanaşma kişi polislərin rolunu azaltmır, əksinə müasir polis sistemində fərqli bacarıqların bir-birini tamamlamasının vacibliyini göstərir. Müasir polis xidməti yalnız gücə deyil, düşüncəyə, ünsiyyətə və məsuliyyətə əsaslanır. Qadın polislərin xidmətdə artan rolu da bu dəyişikliyin bariz göstəricisidir.

*A.Tahirova*

# Qanun deyir ki...

## Hansı halda mənzil toxunulmazlığı hüququ məhdudlaşdırılır?



“Polis haqqında” Qanunun 24-cü maddəsinə əsasən polis əməkdaşı tərəfindən şəxsin mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılmasına və yaşayış yerinə orada yaşayanların iradəsinə zidd olaraq daxil olunmasına yalnız qanunla müəyyən edilmiş hallarda və qaydada yol verilir. Belə hallardan biri məhkəmə qərarının olmasıdır.

Məhkəmənin qərarı olmadan isə polis əməkdaşının yaşayış yerinə daxil olması yalnız ictimai təhlükəsizliyin və ictimai qaydanın təmin edilməsi, digər şəxslərin hüquq və azadlıqlarının qorunması, ağır cinayətlərin, bədbəxt hadisələrin, təbii fəlakətlərin, qəzaların, epidemiyaların qarşısının alınması və ya onların nəticələrinin aradan qaldırılması məqsədilə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurəti yarandıqda mümkündür.

Eyni zamanda polis əməkdaşı hakimin qərarı olmadan yalnız dəqiq məlumatlar əsasında yaşayış yerinə daxil ola bilər. Bu məlumatlar şəxsiyyətə və ya dövlət hakimiyyətinə qarşı cinayətin törədilməsinə və ya hazırlanmasına dəlalət edən əşya və ya sənədlərin həmin ünvanda gizlədilməsi, bu cür cinayətləri törədən, törətmiş və ya hazırlayan şəxsin, habelə azadlıqdan məhrum etmə və ya həbs yerlərindən qaçmış şəxsin yaşayış yerində gizlənməsi, yaşayış yerində insan meyitinin və ya meyit hissələrinin olması, insanın həyat və ya səhhəti üçün real təhlükənin mövcudluğu, eləcə də cinayət törətmiş şəxsin “isti izlərlə” təqib edilməsi ilə bağlı ola bilər.

Məhkəmənin qərarı, yaxud qanunda göstərilən bu hallar və əsaslar olmadan mənzil toxunulmazlığı hüququnun məqsədəuyğunluq, müvəqqəti zərurət və ya digər mülahizələrlə məhdudlaşdırılması qadağandır.

Bu müddəalar fiziki və hüquqi şəxslərə məxsus qeyri-yaşayış binalarına, tikililərə, torpaq sahələrinə və qanunvericiliklə müəyyən edilmiş digər obyektlərə daxilolma hallarına da şamil edilir. Mənzil toxunulmazlığı hüququnun qanunsuz məhdudlaşdırılmasına yol vermiş polis əməkdaşı qanunvericiliklə müəyyən edilmiş məsuliyyət daşıyır.

# “Dejavu” hadisəsi

## Artıq yaşamışam hissinin təkrarı

Həyatımızda bəzən qəribə anlar olur. Bir yerə daxil oluruq, bir söhbət eşidirik, bir mənzərə görürük və birdən hiss edirik ki, bütün bunları əvvəllər də yaşamışıq. Hətta sözləri, səhnəni, hiss etdiyimiz duyğuları da olduğu kimi xatırlayırıq.

Bu təcrübə çoxlarının maraq və təəccübünü çəkir, bəzən qorxu yaradır, amma əslində beynimizin yaradıcı və sirli fəaliyyətinin bir məhsuludur.

Psixologiyada bu fenomen “déjà vu” adlanır - fransızca “artıq görülmüş” mənasını verir.

### Beynin sirli mexanizmi

“Dejavu” hissi beynin yaddaş sistemi ilə yaxından bağlıdır. Yeni təcrübələr beynimizdə mövcud xatirələrlə müqayisə olunur. Bəzən bu müqayisə səhv olur və beynimiz yeni hadisəni tanış kimi qəbul edir. Bu hal yeni məlumatın beyinlə yaddaş arasında sinxronizasiyası zamanı tam uyğun gəlməyən anlarda yaşanır.

Elmi araşdırmalar göstərir ki, bu hadisə normaldır və əksər insanlar həyatları boyunca bir neçə dəfə dejavu yaşayır.

Maraqlısı odur ki, bu hiss daha çox gənc insanlarda müşahidə olunur. Bəzi mütəxəssislər bunu onların beyninin qavrayış sisteminin yüksək işləməsi ilə izah edirlər.

### Nə zaman və niyə baş verir?

“Dejavu” hissi yorğunluq, yuxusuzluq və stress zamanı da ortaya çıxır. Beyin yorğun olduğunda məlumatların işlənməsi zamanı kiçik səhvlər yarana bilər və yeni təcrübə artıq yaşanmış kimi qəbul edilir.

Bəzi tədqiqatlar isə göstərir ki, bu hadisə yaradıcılıq və analitik düşüncə qabiliyyətinə müsbət təsir göstərə bilər. İnsanlar bu hissi bəzən qorxulu və qəribə hesab etsələr də, əslində o, beynin normal, maraqlı bir funksiyasıdır.

### Psixoloji və mədəni aspektlər

“Dejavu” yalnız fərdi bir təcrübə deyil, həm də beynin zaman və yaddaş qavrayışını öyrənmək üçün bir vasitədir.



Bəzən bu hiss insanlarda özünü müşahidə etməyi artırır, daxili düşüncələrə daha çox diqqət yetirməyə imkan verir.

Hətta bəzi psixoloqlar bunu “beynin kiçik oyunu” adlandırır: özünü və ətrafı müşahidə etmək üçün yaradılmış bir mexanizm.

“Dejavu” hadisəsi həm qəribə, həm də maraqlıdır. Hər dəfə belə bir hiss yaşadıqda qorxmamalı, əksinə bunu diqqətlə müşahidə etməliyik. Beynimiz sadəcə bir oyun oynayır və bizə həyatın qavrayışını yenidən qiymətləndirmək fürsəti verir.

Bu təcrübə beynimizin mürəkkəbliyini göstərir və insan qavrayışının nə qədər heyrətamiz olduğunu xatırladır. Növbəti dəfə bir hadisəni əvvəllər yaşamış kimi hiss etdikdə bunu beynin yaddaş və qavrayış sistemlərinin təbii fəaliyyəti kimi qiymətləndirmək olar.

Bir sözlə bu hiss gündəlik həyatın maraqlı psixoloji nümunəsidir.

*A.Tahirova*

# Mədəni davranışın “qızıl” qaydası

## Hörmətlə başlanan ünsiyyət

Hər bir insanla münasibətdə nəzakət və hörmət göstərmək gündəlik həyatın ən vacib elementidir. Salamlaşmaq sadə görünə bilər, amma səmimi və gözün içinə baxaraq edilən salam qarşı tərəfin sizə olan münasibətini formalaşdırır. Qadınlarla qarşılaşanda həmişə hörmətli və nəzakətli olun, əl sıxmaq və ya başınızı yüngülcə tərpətmək kifayətdir. Yaşlı insanlara qarşı diqqətli davranmaq, sözünü kəsməmək və hərəkətlərinizdə yumşaqlıq göstərmək onların hörmətini qazanmaq üçün önəmlidir. Masada oturarkən əvvəl qadın və yaşlı qonaqlara üstünlük vermək, yemək zamanı səliqəyə diqqət yetirmək mədəni davranışın göstəricisidir. Telefonu masada istifadə etməmək, söhbətə diqqət yetirmək qarşı tərəfə hörmətin ifadəsidir. İnsanları dinləyərkən diqqətli olmaq, sözlərini qiymətləndirmək və təşviq etmək münasibətlərin keyfiyyətini artırır. Qapılarda yaşlılara və qadınlara yol vermək, çantaları və əşyaları başqalarının yerinə qoymamaq, kiçik jestlər vasitəsilə hörmət göstərmək mümkündür. Yalan danışmaqdan və sözləri böyütməkdən çəkinmək, dürüst və açıq olmaq isə mədəni davranışın təməl prinsiplərindəndir. Hər bir hərəkətinizlə başqalarına hörmət göstərmək üçün fürsət yaradın. Çünki mədəni davranış yalnız formal qaydalar deyil, həm də insanlar arasında etimadı və anlayışı möhkəmləndirən güclü vasitədir.



POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
ANAR QAFAROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik